**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CƏNUBİ QAFQAZDA SU EHTİYATLARININ TƏHLÜKƏSİZLİYİ: İNSAN HÜQUQLARI VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR KONTEKSTİNDƏ

İxtisas: 5901.01 – “Beynəlxalq münasibətlər”

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Yeganə Ürfan qızı Baxşıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun "Beynəlxalq münasibətlər və insan hüquqları" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**İradə Mehtiqulu qızı Hüseynova**

**Rəsmi opponentlər:** siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ləman Zahid qızı Qarayeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Eldar Arif oğlu Cəfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik
_______________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, prof.əvəzi
_______________ **Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, professor
_______________ **Elçin İldırım oğlu Əhmədov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XXI əsr dünya dövlətlərinin sürətli inteqrasiyası ilə, kosmopolitikləşmə proseslərinin intensiv xarakter alması ilə səciyyələnir. Müasir dünyada həm qlobal, həm də regional inteqrasiyanın əsas sütunlarını təhlükəsizlik məsələləri və təhlükəsizliyin etibarlı təminatı təşkil edir. Təhlükəsizliyin bir növü olan ekoloji təhlükəsizlik, xüsusilə hidrotəhlükəsizlik özünün aktuallığı ilə seçilir.

Hər bir dövlətin hidroresursu onun mühüm strateji əhəmiyyətli sərvətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin 1970-ci ildə Kür su kəmərlər sisteminin açılışı zamanı çıxışında: "*Su hər bir kəs üçün sevinc və səadət rəmzidir*" fikirləri suyun insan həyatında nə qədər əhəmiyyətli rola malik olduğunu təsdiqləyir.

Bu mənada tədqiqat mövzusunun aktuallığını aşağıdakı amillərlə qruplaşdıra bilərik:

Birincisi, hazırki dövrdə mövcud ətraf mühitin bütün sahələrində yaranan siyasi, sosial-iqtisadi ziddiyyətlər müasir cəmiyyətdə ekoloji problemlərin, sosial ədalətsizliyin dərinləşməsinə səbəb olmuşdur. Bu amil Cənubi Qafqaz regionunda hidrotəhlükəsizlik məsələlərinin həm siyasi-hüquqi aspektdə, həm də mənəvi kontekstdə tədqiq olunmasını şərtləndirir.

İkincisi, XXI əsrin əsas geosiyasi problemi su ehtiyatlarının sürətlə tükənməsi, qlobal miqyaslı şirin su çatışmazlığı və ekoloji təhlükəsizlik sisteminin təminatında yaranan boşluqlardır. İstər beynəlxalq, istərsə də regional dövlətlərin suveren mövcudluğunun əsası və milli təhlükəsizliyinin dayanıqlı təminatı ekoloji proseslərlə vəhdət halındadır. Ekoloji böhranın yaratdığı qarşıdurmaların və sosial gərginliyin artması cəmiyyətin, dövlətin həyatını müvazinətdən çıxarır. Bu səbəbdən bir çox ölkələrdə ekoloji siyasət milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi olaraq dövlətlərin strategiyasında siyasi komponent kimi mühüm əhəmiyyət kəsb edir.

Üçüncüsü, Cənubi Qafqazda transsərhəd su resurslarının qeyri-obyektiv bölgüsü və qeyri-leqal istifadəsi, regional qanunvericilikdəki boşluqlardan dolayı siyasi və iqtisadi müstəviyə

keçmişdir. Halbuki, Cənubi Qafqaz regionunun transsərhəd çayları bu ölkələrin iqtisadi, siyasi və sosial həyatında yarana biləcək sabitlikdə, eləcə də regional münasibətlərin tərəfdaşlıq zəminində qurulmasında müstəsna əhəmiyyət kəsb edir. Cənubi Qafqazda region dövlətlərinin təhlükəsizlik məsələlərində maraq və mənafelərinin qorunması bu ölkələrin transsərhəd çaylardan düzgün istifadə aspektləri ilə sıx əlaqəlidir. Bu səbəbdən Cənubi Qafqazda yaşayan əhalinin şirin suya olan tələbatı həndəsi silsilə üzrə artmaqda davam etmiş, nəticədə su qıtlığının genişlənməsi amili regionun transsərhəd çay hövzə ölkələrinin bir-birinə qarşı ərazi iddiaları irəli sürməsi ilə müşahidə olunmuşdu.

Dördüncüsü, Cənubi Qafqaz regionunun hidromühitində son on ildə baş verən, çözülməsi böyük çətinliklərlə qarşılaşan hidrotəhlükəsizlik problemləri tədqiqat mövzusunun aktuallığının əsasında dayanır. Tədqiqatın əsasını təşkil edən transsərhəd Kür-Araz hövzəsi regionun hidrologiyasında əhəmiyyətli yerə malikdir. Coğrafi cəhətdən Kür-Araz çayları region dövlətlərindən müxtəlif istiqamətdə və qeyri-bərabər paylanma şəraitində axır.

Məlumdur ki, regionun transsərhəd çayları Cənubi Qafqazın 2/5 hissəsində yerləşir. Regionda Azərbaycan bu pay bölgüsündə aşağı axar ölkəsi olaraq son sıralamada yer alıb. Azərbaycan Respublikasının su ehtiyatları (ümumilikdə 25-30 milyard $m^3$) ölkənin daxilində formalaşan yeraltı suların 30%-i həcmindədir. Digər qalan 70% su kütləsi yuxarı axar ölkələrində formalaşır. Regionda Gürcüstanın pay bölgüsündə 62%, Ermənistanın pay bölgüsündə 28% və Azərbaycanın pay bölgüsündə 10% ümumi içməli su ehtiyatı var.

Azərbaycanın hidroehtiyatlarının 25%-ni təşkil edən Qarabağ bölgəsinin su hövzələrinin tədqiqi olduqca böyük aktuallıq kəsb edir. Azərbaycan Respublikasının Qarabağ regionunun 30 illik Ermənistan işğalından azad edilməsi və regionun hidrotəhlükəsizliyində yeni tarixi dövrün başlanması tədqiqatın mühüm tərkib hissəsi olaraq araşdırılmışdır. 44 günlük müharibənin sonunda Qarabağ Zəfərindən sonra regionda Prezident İlham Əliyevin "yaşıl enerji" siyasətinə uyğun olaraq bərpa olunan enerjilə bağlı həyata keçirdiyi əhəmiyyətli

layihələr regionun hidroresurslarının nəinki regional, həm də beynəlxalq arenada günbəgün yüksələn əhəmiyyətinə əsaslanır.

Dissertasiyada Xəzər dənizinin hidrotəhlükəsizlik məsələləri və dənizin mövcud ekologiyası sahilyanı dövlətlərin hidromünasibətləri kontekstində tədqiqata cəlb olunmuşdur. Cənubi Qafqazın hidrotəhlükəsizliyində mühüm əhəmiyyət daşıyan Xəzər hövzəsi region dövlətlərinin dənizdən qeyri-stabil istifadəsi nəticəsində hədsiz çirklənməyə məruz qalmışdır. Bu mənada dənizin ekoloji təhlükəsizliyinin öyrənilməsi tədqiqatın aktuallığının əsasında dayanır.

Beşincisi, hazırki dövrdə ətraf mühit problemlərinin həlli, ekoloji təhlükəsizliyin stabil mühafizəsi və təbii ehtiyatlardan məqsədyönlü istifadə məsələləri daha çox beynəlxalq hüququn norma və qanunları əsasında tənzimlənmə prinsiplərinə uyğunlaşma tələb edir. Çünki ekoloji problemlərin rasional həlli beynəlxalq hüquq çərçivəsində müəyyən olunmalıdır və yalnız bu halda bəşəriyyətin dinamik inkişafına böyük töhfələr verilə bilər.

Cənubi Qafqazda dövlətlər arasında transsərhəd çayların qeyri-bərabər paylanması və məhdud olması, transsərhəd su hövzələrinin ifrat çirklənməsi, idarəetmə vasitələrinin və institusional münasibətlərdə qeyri-müəyyənlik, su təhlükəsizliyinə təhdidlərin olması, eləcə də su ehtiyatlarının inteqrasiyalı idarə edilməsində hövzə prinsipinin nəzərə alınmaması və s. kimi problemlər mövcuddur.

Bu problemləri uzaqgörənliklə qiymətləndirən Prezident İlham Əliyev öz çıxışlarının birində əsaslı şəkildə vurğuladı ki, XXI əsrdə dünya dövlətlərinin əsasən karbohidrogen resursları uğrunda mübarizə apardığı bir dövrdə Azərbaycan dövləti bu resurslardan səmərəli şəkildə istifadə edərək ölkə vətəndaşlarının rifahı, Azərbaycan dövlətinin inkişafı üçün su resurslarının təhlükəsizliyinin etibarlı təminatını həyata keçirir. Azərbaycan vətəndaşları ölkənin ekologiyasını qorumaqla Azərbaycan xalqının sağlamlığını, milli genofondunu qorumuş olacaqlar.[1]

---

[1] Azərbaycan qəzeti. №146 - 5 iyul, - 2006.

Prezidentin digər bir nitqində: "*Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bu gün isə bu rəqəm 70 faizə çatıbdır. Bu, doğrudan da tarixi nailiyyətdir*" bəyanatı hidrosiyasətdə əldə olunan uğurların bariz göstəricisidir.[2]

Məsələnin tarixinə nəzər yetirdikdə əslində regionun hidromühitinin qərəzli və məqsədli şəkildə dəyişikliyə məruz qalması aydın olur. Belə ki, Sovet İttifaqının süqutuna qədər SSRİ, İran və Türkiyə Kür və Araz çaylarından istifadə məsələlərini özlərinin üçtərəfli qaydada qəbul etdikləri normativlərə uyğun tənzimləyirdilər. Regionda müstəqil dövlətlərin yaranması ilə regionun həm siyasi, həm də ekoloji mənzərəsi dəyişdi. Üstəlik, Ermənistanın 30 il müddətində Azərbaycan Respublikasına qarşı hərbi təxribatı qeyd olunan problemin həllini çətinləşdirdi. Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü ümumilikdə regionda ekoloji problemlərin həllinə mane olmaqla, yeni və daha ağır ekoloji böhranın yaranmasına səbəb oldu.[3]

Beynəlxalq hüquq müstəvisində isə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin predmetini təşkil edən su ehtiyatları ilə əlaqəli məsələlərə bugünədək obyektiv qiymət verilməmişdir. Tədqiqat prosesində məlum olub ki, Ermənistanın hidrostrategiyası beynəlxalq qanunvericilik normalarına tamamilə zidd xarakter daşıyır. Ekologiya sahəsində bir sıra beynəlxalq konvensiyalara məqsədli şəkildə qoşulmayan Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozmuşdur. [4]

---

[2] İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib [Elektron resurs] / 23 iyul 2020 URL:https://president.az/az/articles/view/39990

[3] Mustafayeva, A., Garayev, R. Legal Aspects of Reparation for Damage Caused to Azerbaijan as a Result of Armenian Aggression: [Electronic resource] / URL:http://irs-az.com/new/pdf/201309/1380093954626732529.pdf. - 61 p, p.15-21.

[4] Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti: [Elektron resurs] / URL:http://anl.az/el/Kitab/2016/2015-1959.pdf - 365

Dissertasiya işinin birinci fəsli yazılarkən A. Qurbanovun,[5] Q. Məmmədovun, M. Xəlilovun,[6] Q. Məmmədovun, R.M. Məmmədovun[7] tədqiqat işlərindən istifadə edilmişdir. Tədqiqat əsərlərində Cənubi Qafqaz ölkələrinin hidrotəhlükəsizlik məsələlərindən bəhs olunur. Regionun transsərhəd çaylarının əsasən texniki, iqtisadi və hüquqi aspektləri daha geniş şəkildə araşdırılmışdır. Məsələn, A. Qurbanov, R.M. Məmmədov, R. Məmmədov, xarici ölkə müəlliflərindən T. Evrim Maden, A.B. Dolxanov, V. Asxer, N. Mirovitskaya bu mövzu ilə bağlı araşdırmalarında məsələyə analitik, elmi-publisistik cəhətdən münasibət bildirmişdirlər. [8]

Eyni zamanda Cənubi Qafqazda Kür və Araz çaylarının, Xəzər regionunun ekoloji problemləri Azərbaycanın bir sıra hüquqşünasları, ekoloq alimləri tərəfindən araşdırılmışdır. Bu sahədə R. Məmmədovun, A. Səlimqereyin həmmüəllif olduqları əsərdə Xəzərin hüquqi statusu ilə bağlı Xəzərsahili dövlətlərin qarşılıqlı münasibətləri siyasi, hüquqi faktlar əsasında təhlil edilmiş və problemin kökündə Rusiya, İran və Türkmənistanın illərlə davam edən siyasi manipulyasiya meyillərinin dayandığı öyrənilmişdir.[9]

Q. Məmmədovun, S. Məmmədovanın, [10] M. Hümbətovun əsərlərin[11] ekologiyanın siyasi, sosial məsələləri, region dövlətlərinin

---

[5] Qurbanov, A. Hidroböhran, hidromünaqişələr və hidrostrategiya: [Elektron resurs] / Bakı: - 2013. URL:http://elibrary.bsu.edu.az/files/books_460/N_210.pdf. - 162 s.

[6] Məmmədov, Q.Ş., Xəlilov, M.Y. Ekologiya, ətraf mühit və insan. - Bakı: Elm, - 2006. - 608 s.

[7] Məmmədov, R.M. Xəzər Dənizinin Hidrometeorologiyası. - Bakı: Avropa, - 2013. - 175 s.

[8] Dolxanov, A.B. Təbiətdən istifadənin hüquqi əsasları. Dərslik. / - Bakı: - 2008. - 578 s; Guide to sustainable development and environmental policy [Electronic resource]/URL:https://www.researchgate.net/publication/37719773_Guide_to_sustainable_development_and_environmental_policy

[9] Мамедов, Р., Салимгерей, А. Конституция Каспия - Конвенция о правовом статусе Каспийского моря: на пути от идеи до ее воплощения. - Алматы, - 2022. - 332 с.

[10] Məmmədov, Q., Məmmədova, S., Hüseynli, E., Həşimov, A. Sosial Ekologiya: [Elektron resurs] / Dərslik. - Bakı: - 2015. URL:http://shirvan.cls.az/front/files/libraries/2474/books/776247834.pdf.– 661 s.

[11] Humbatov, M. Threat to the world: hydrological crime and ecological genocide. - Vilnius, - 2018. - 199 p.

sudan istifadə rejiminin beynəlxalq normalara uyğunluq dərəcəsi statistik hesablamalar, müqayisəli təhlil əsasında araşdırılmışdır.

Xarici tədqiqatçılardan A. Edvard Kolodziejin,[12] A. Kolinsin[13] elmi əsərlərində ekologiya məsələləri nəzəri-konseptual əsasda araşdırılmış və ekoloji təhlükəsizlik problemlərinin həllinin siyasi metodologiyası geniş şəkildə şərh edilmişdir.

A. Qurbanovun tədqiqat işində bu mövzu hərtərəfli şəkildə, faktlara əsaslanaraq işıqlandırılmış və analitik, publisistik xarakterli təhlillər öz əksini tapmışdır. Lakin tədqiqat işində Cənubi Qafqazın hidrotəhlükəsizliyinə yönələn təhdidlər və təxribatlar, transsərhəd çayların qeyri-leqal istifadə rejimi və nəticədə regionda insan hüquqlarına yönəlmiş təhlükələr beynəlxalq və regional qanunvericilik səviyyəsində yetərli şəkildə öyrənilməmişdir.

Həmçinin S.Məmmədovanın, [14] E.Zənginin [15] tədqiqat işləri xüsusi maraq doğurur. Hər iki müəllif fundamental elmi araşdırmalara istinad edərək ekoloji təhlükəsizlik məsələlərini geniş təhlil etmiş, lakin regionun hidrotəhlükəsizliyinə ötəri nəzər salmışlar.

Dissertasiyanın ikinci fəsli yazılarkən istifadə edilən M. Metyuzun, Ə. Əbu Əlsəidin, F. İmanovun[16], A. Mustafayevanın,

---

[12] Edvard, A.K. Security and international relations. Cambridge University. - 2005. - 250 p.

[13] Colins, A. Contemporary Security studies. - Oxford: - New-York – 2007. – 306 p.

[14] Məmmədova, S. Müasir şəraitdə dövlətin ekoloji siyasəti: formalaşması və həyata keçirilməsi mexanizmləri: Azərbaycan Respublikası timsalında: /siyasi elmlər doktoru dis./ - Bakı, - 2018, - 387 s.

[15] Zəngin, E. Davamlı inkişafa əsaslanan ekoloji siyasətin həyata keçirilməsində Türkiyə-Azərbaycan əməkdaşlığı (müasir dövr): / siyasi elmlər doktoru dis./ - Bakı, - 2011, - 319 s.

[16] Metyuz, M., Əbu Əlsəid, Ə., İmanov, F. Azərbaycanın su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi üzrə milli fəaliyyət planının məqsəd və vəzifələri // Su təsərrüfatı, mühəndis kommunikasiya sistemlərinin müasir problemləri və ekologiya. Beynəlxalq elmi praktiki konfransın materialları. - Bakı: - 2014. - s.230- 234.

R. Qarayevin,[17] R. Verdiyevin [18] əsərlərində problemə müqayisəli təhlil metodu əsasında baxılması öyrənilmiş, lakin Cənubi Qafqaz dövlətlərinin transsərhəd sulardan istifadəsində beynəlxalq qanunvericilik normalarına zidd fəaliyyətləri, beynəlxalq təşkilatlarda problemin həlli istiqamətində hansı regional tədbirlərin, beynəlxalq layihələrin reallaşması məsələlərinin tədqiqat işlərində zəif araşdırılması müəyyən olunmuşdur.

Dissertasiyanın üçüncü fəsli yazılarkən İ. Hüseynovanın,[19] U.Ələkbərovun,[20] T.Evrim Madenin[21] elmi-tədqiqat əsərlərindən istifadə edilmişdir. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumat materialları əsasında erməni silahlı təcavüzü və işğalı nəticəsində ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin qiymətləndirilməsi" adlı hesabatı,[22] S. Məmmədovanın[23] elmi əsəri, T. Evrim Madenin elmi məqaləsi, R. Sevdimalıyevin[24]

---

[17] Mustafayeva, A., Garayev, R. Legal Aspects of Reparation for Damage Caused to Azerbaijan as a Result of Armenian Aggression: [Electronic resource] / URL:http://irs-az.com/new/pdf/201309/1380093954626732529.pdf. - 61 p.

[18] Verdiyev, R. National Water Strategy of Azerbaijan Republic: [Electronic resource] / Geneva - 2012. URL:https://unece.org/fileadmin/DAM/env/water/npd/Pres_Rafig_Final.pdf - 31 p.

[19] Huseynova, I.M. Haydar Aliyev and peace process in the Caucasus. (Translated by Bakhshiyeva Y.U). - Baku: Fuyuzat, - 2023, - 528 p.

[20] Ələkbərov, U.K. Davamlı İnsan İnkişafı və Ekoloji Sivilizasiyanın Əsasları: [Elektron resurs] / Dərslik. - Bakı: Təhsil, - 2013. URL:http://elibrary.bsu.edu.az/files/books_80/N_16.pdf. - 222 s.

[21] Evrim, M.T. Azerbaycan'da su kitliği ve Ermenistan ile Sarsang rezervuari sorunu // Ermeni Arastirmalari. – 2015, - № 52, - s.189-220.

[22] Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumat materialları əsasında erməni silahlı təcavüzü və işğal nəticəsində ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin qiymətləndirilməsi (hesabat). - Bakı: - 2015. - 252 s.

[23] Məmmədova, S. Müstəqil Azərbaycan dövlətinin ekoloji siyasətinin məzmunu və reallaşması istiqamətləri. Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə: [Elektron resurs] / URL:http://www.elibrary.az/docs/jurnal/jrn2016_1010.pdf. -138 s.

[24] Sevdimaliyev, R. International political and legal aspects of the threats related to the occupied Sarsang water reservoir for Azerbaijan // Global and regional hydropolitical problems in the context of international cooperation and security, international conference. - Baku: - 2014, - p.62-68.

tədqiqat işi Ermənistanın hidrotəxribatı nəticəsində transsərhəd çayları, Sərsəng su anbarını məqsədli şəkildə çirkləndirməsi və region əhalisinin sudan istifadə hüquqlarının pozulması kimi bir sıra problemlərə həsr olunubdur.

Avropa Şurası Parlament Assambleyasının Sərsəng su hövzəsi ilə əlaqədar nəşr olunan qətnamə və bəyanatları, BMT-nin (YUNEP, YUNESKO), Avropa İttifaqının, ATƏT-in ətraf mühitin mühafizəsi haqda qəbul etdiyi sənədlər regionun hidrotəhlükəsizliyində hazırki problemləri və bu sahədə regional birliyin yaranmasında əsasən Ermənistanın qeyri-konstruktiv mövqeyini əks etdirməsi baxımından əhəmiyyətli mənbələr hesab olunur.

Bundan başqa tədqiqatın yazılması prosesində əsaslı mənbələr kimi istifadə edilən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hidrostrategiya sahəsində imzaladığı çoxsaylı sərəncamlar, fərmanlar, layihə və proqramların Azərbaycanı nəinki Qafqazda, eləcə də beynəlxalq aləmdə nümunəvi dövlət statusu səviyyəsinə qaldırması amili əks olunmuşdur.

Həmçinin tədqiqat işinin mənbə bazasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərsu ASC-nin (Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi) arxiv sənədlərindən, Azərbaycan Diplomatik Akademiyası Universitetinin elmi kitabxana materiallarından, kütləvi informasiya vasitələrinin materiallarından və internet resurslarından istifadə olunmuşdur.

Dissertasiyada yuxarıda sadalanan tədqiqat əsərlərindən fərqli olaraq Cənubi Qafqazın hidromühitinin hazırki vəziyyəti məhz siyasi, hüquqi aspektlərə söykənərək araşdırılmış, Kür-Araz çay hövzəsində yaranan ekoloji, hüquqi problemlər, ekoloji böhran yaradan amillər və böhranın insan hüquqlarına dağıdıcı təsiri müəyyən olunmuş, hidroböhranın qarşısının alınması üçün tədbirlərin müəyyən edilməsi və problemlərin həlli metodları göstərilmişdir. Dissertasiyada bu məsələlərə müqayisəli, sistemli, kompleks və təcrübi materiallar əsasında geniş yer ayrılmışdır.

Bugünədək Azərbaycan Respublikasında Cənubi Qafqazda su ehtiyatlarının təhlükəsizliyini insan hüquqları və beynəlxalq münasibətlər kontekstində tədqiq edən müstəqil və kompleks

tədqiqat əsəri yazılmamışdır. Azərbaycan Respublikasının siyasi elmində bu mövzu ilk dəfə dissertasiya işi səviyyəsində tədqiq olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Cənubi Qafqazda mövcud hidrotəhlükəsizlik məsələləri və bu sahədə yaranan problemlərin, maneələrin müəyyənləşdirilməsi, həlli yollarının irəli sürülməsi təşkil edir. Regionun transsərhəd çay hövzəsinin əsasını təşkil edən Kür-Araz çaylarında mövcud ekoloji böhran, böhranı yaradan amillər, eləcə də Ermənistanın 30 il ərzində Azərbaycan Respublikasının suveren ərazi bütövlüyünü pozaraq işğal etdiyi regionlarda yaratdığı hidroloji problemlər, həm Azərbaycan Respublikasının, həm də region dövlətlərinin hidrotəhlükəsizliyinə yönələn təhdid və təxribatlar nəticəsində insan hüquqlarının kobud şəkildə pozulması məsələləri tədqiqatın predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Cənubi Qafqazda su ehtiyatlarının təhlükəsizlik məsələlərini elmi cəhətdən və kompleks şəkildə tədqiq etmək, transsərhəd su ehtiyatları ilə bağlı Cənubi Qafqazın regional dövlətlərinin mövcud problemlərini araşdırmaq və onların həlli yollarını təklif etməkdən ibarətdir. Göstərilən məqsədlərə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

-Cənubi Qafqaz regionunda transsərhəd su hövzələrinin təhlükəsizliyi sahəsində region dövlətlərinin fəaliyyəti və regionda ekoloji vəziyyətin insan hüquqlarına təsiri mexanizmini araşdırmaq;

- Cənubi Qafqaz regionunda hidrotəhlükəsizliyin təminatı ilə bağlı hər bir region dövlətinin fəaliyyətindəki qüsurları araşdırmaq, Cənubi Qafqaz dövlətlərinin hidrosiyasətində sahib olduqları potensial imkanları təhlil etmək;

- Ermənistanın Kür - Araz çay hövzələrini çirkləndirməsi nəticəsində regionun hidrotəhlükəsizliyinə yönələn təhdidləri, ümumiyyətlə bu dövlətin hidroloji problemləri məqsədli şəkildə və qonşu dövlətlərlə hidromünasibətlərin qurulmasında bir alətə çevirməsi amilini araşdırmaq;

-Beynəlxalq ekologiya hüququnun prinsip və normalarına zidd xarakter daşıyan və regionda yaranan ekoloji fəlakət nəticəsində insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması amillərini araşdırmaq;

- Cənubi Qafqaz dövlətlərinin transsərhəd su hövzələrinin inteqrasiyalı idarə olunmasında mövcud problemləri araşdırmaq;

- Cənubi Qafqazın hidrostrategiyasında beynəlxalq aktorların və təşkilatların regiona olan marağını və təsirini araşdırmaq;

- Cənubi Qafqaz dövlətlərinin regionda transsərhəd su ehtiyatlarına dair irəli sürülən təkliflərini təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını öyrənən dialektika və idrak nəzəriyyəsinin əsas müddəa və kateqoriyaları təşkil edir. Tədqiqat işinin yerinə yetirilməsi prosesində beynəlxalq münasibətlər sistemində transsərhəd su ehtiyatlarının təhlükəsizliyi ilə bağlı dövlətlərarası əməkdaşlıq təcrübələrindən, beynəlxalq hüquq elminin xüsusi metodlarından, sosioloji-məntiqi yanaşma, müqayisəli və sistemli təhlil, tarixilik, induksiya və deduksiya metodlarından, sosioloji sorğulardan, empirik materiallardan və ümumiləşdirmələrdən istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Kür və Araz çayları hövzəsinin ekoloji vəziyyətinin daim nəzarətdə saxlanması, çirklənmədən qorunması üçün hövzə ətrafı dövlətlər tərəfindən birgə hökumətlərarası Komissiyanın yaradılması və mütəmadi olaraq bu çayların mənbəyindən (Türkiyə ərazisindən), keçdiyi transsərhəd ərazilərindən və mənsəbindən (Azərbaycan Respublikası ərazisindən) nümunələrin götürülməsi, çirklənmə mənbələrinin müəyyən edilməsi və qarşısının alınması üçün müvafiq tədbirlərin həyata keçirilməsi vacibdir.

2. Xəzər dənizinin ekoloji təhlükəsizliyi birbaşa Kür və Araz çaylarının ekoloji təhlükəsizliyi ilə əlaqəlidir. Buna görə də Xəzər dənizinin beynəlxalq-hüquqi statusunu müəyyən edən beynəlxalq konvensiyaya əlavə protokol kimi Kür və Araz çaylarının çirkləndirilməsinin qarşısının alınması və buna görə hüquqi

məsuliyyət və öhdəlikləri müəyyən edən normaların daxil edilməsi zəruridir.

3.İşğal dövründə vurduğu ekoloji ziyana və bu gün də davam edən ekosid, hidroterror fəaliyyətinə görə təcavüzkar Ermənistan dövlətini BMT-nin Beynəlxalq Məhkəməsinə vermək üçün hüquqi bazanın formalaşdırılması, lazımi material və sübutların toplanması və bu sahədə aidiyyatı dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üçün xüsusi regional komissiyanın yaradılması vacibdir. Eyni zamanda Kür və Araz çayları hövzəsinin ekoloji təhlükəsizliyinin təmin olunması məqsədi ilə hövzə dövlətləri tərəfindən Ermənistanın işğalçılıq siyasətinin və ekoloji terrorunun qarşısının alınması istiqamətində həm hökumətlərarası, həm də QHT-lər çərçivəsində fəaliyyət genişləndirilməli, eyni zamanda problem müvafiq beynəlxalq təşkilatlar qarşısında birgə qaldırılmalıdır.

4. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Kür və Araz çayları hövzəsinin ekologiyasına, 30 il ərzində işğal altında qalmış Sərsəng və digər su anbarlarına, mineral su ehtiyatlarına milyardlarla manat həcmində ziyan dəymişdir. Vurulan ziyanın həcmi 20 il əvvəlki qiymətlərlə hesablanmış və bugünkü reallığı əks etdirmir. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində fauna və floranın vəziyyətinin qiymətləndirilməsi və yenidən qeydiyyatının aparılması ilə bağlı təkliflərlə çıxış edilməlidir. Ümumilikdə, Azərbaycan Respublikasına vurulan ziyan, o cümlədən Kür və Araz çayları hövzəsinə, su ehtiyatlarına dəyən fəsadların qiymətləndirilməsi beynəlxalq qiymətləndirmə standartlarına uyğun olaraq beynəlxalq ekspertlər qrupu tərəfindən hesablanmalıdır.

5. Hövzə dövlətlərinin beynəlxalq xarakterli ekoloji məsələləri nizamlayan konvensiyalara qoşulmaması (məsələn, bu sahədə fundamental sənəd hesab olunan BMT-nin Helsinki Konvensiyası-1992) Kür və Araz çayları hövzəsinin ekoloji problemlərinin həllinə mane olur. Hövzə dövlətlərinin regional və universal təşkilatlarda birgə fəaliyyəti, beynəlxalq konvensiyalara qoşulması olduqca mühüm əhəmiyyət kəsb edir. Bütün hövzə dövlətlərinin həmin

konvensiyalara qoşulması üçün hövzə dövlətlərindən ibarət birgə komissiyanın yaradılması səmərəli nəticə verə bilər.

6.Tullantıların zərərsizləşdirilməsi ilə bağlı inkişaf etmiş ölkələrin innovativ təcrübələrindən yararlanmaq məqsədəuyğundur. Belə ki, müasir dövrdə bərk məişət tullantılarının xüsusi məişət anbarlarına yüklənməsi prosesi, tullantıların hündür sütun şəklində yığılması üsulu ekologiyanı maksimum mühafizə edir və yeraltı suları çirklənmədən qoruyur, nəticədə ətraf mühitə atılan tullantıların həcmini 4-5 dəfə azaldır.

7. Region dövlətlərində istehsalın təşkilinin mümkün variantlarından elə birinə üstünlük verilməlidir ki, o çəkiləcək xərclərdən asılı olmayaraq ətraf mühitin qorunması, normal iş şəraitinin yaradılması, habelə istehsal müəssisəsinin təsis zonasında olan yaşayış massivlərində insan sağlamlığının təmin edilməsi kimi ciddi qaydalara riayət edilsin.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi Azərbaycan Respublikasının beynəlxalq münasibətlər elmində Cənubi Qafqaz regionunda cəmiyyətin hidrotəhlükəsizlik hüquqlarının qanunvericilik əsasında qorunmasına, transsərhəd çay hövzələrinin ekoloji mühafizəsinə, beynəlxalq-hüquqi problemlərinə həsr olunmuş ilk kompleks və monoqrafik xarakterli tədqiqat əsəridir.

Tədqiqat işinin elmi yeniliyini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Cənubi Qafqazın hidromühit və hidrologiya sahəsində cəmiyyətin siyasi, iqtisadi və sosial həyatına təsir göstərən amillər sistemli olaraq tədqiq olunmuş;
- Cənubi Qafqaz dövlətlərinin hidrotəhlükəsizliyinin qorunub saxlanmasında və hidrotarazlığın mühafizəsində hansı mövqedən çıxış etdikləri araşdırılmış;
- Ermənistanın transsərhəd sulardan qeyri-leqal şəkildə istifadəsi faktları açıqlanmış və Ermənistanın əslində hidroresurslardan siyasi alət kimi istifadəsi məsələləri öyrənilmişdir;
- Regionda transsərhəd çayların istifadə rejiminin beynəlxalq hüquqi norma və prinsiplərə uyğunsuzluq faktları tədqiq olunmuşdur;

- Dünya ölkələrinin transsərhəd çaylardan istifadə rejimində qazandıqları təcrübi biliklər region dövlətlərinin hazırki durumu ilə müqayisəli təhlil olunmuş, oxşar və fərqli xüsusiyyətlərlə yanaşı, transsərhəd sulardan istifadə ilə bağlı Cənubi Qafqaz dövlətlərinin hidrotəhlükəsizlik mühitində yaranmış boşluqlar araşdırılmış və təhlil olunmuşdur;

- 30 il ərzində Ermənistana qarşı heç bir sanksiya, cəza mexanizmi tətbiq edilmədiyinə görə nəticə etibarilə regionun hidrosiyasətinin çox böyük təhlükə ilə üz-üzə qaldığı müəyyən edilmişdir;

- Problemin həlli yolu kimi region dövlətlərinin birgə əməkdaşlıq səylərinin birləşdirilməsi, stimullaşdırılması və Cənubi Qafqazın hidrotəhlükəsizliyinin təminatında əməli addımların atılması istiqamətində mühüm istiqamətlər tövsiyə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində irəli sürülmüş tövsiyə və təkliflər regionun mübahisəli transsərhəd su hövzələrinin həlli kontekstində elmi baza kimi, milli qanunvericiliyin beynəlxalq-hüquqi standartlara uyğunlaşdırılmasında, ekoloji qanunvericiliyin təkmilləşdirilməsi və tətbiqi işində faydalı ola bilər. Bundan başqa qeyd edilən təklif və tövsiyələr Kür və Araz çaylarının ekoloji təhlükəsizliyi ilə bağlı hövzə dövlətləri tərəfindən hazırlanacaq saziş və müqavilələrdə nəzərdə tutulan tədbirlərin müəyyən olunmasında və icra olunmasında əsas götürülə bilər. Tədqiqat işinin materiallarından həmçinin tədris prosesində, gələcək elmi tədqiqatların yazılması prosesində, universitetlərdə, problemə dair keçirilən elmi-praktik konfranslarda müzakirələr zamanı istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqat işinin ayrı-ayrı aspektləri üzrə AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun “Beynəlxalq münasibətlər və insan hüquqları” şöbəsinin birgə keçirdikləri seminarlarda müzakirələr aparılmış, elmi konfranslarda məruzələr edilmişdir. Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan, Azərbaycanda və xaricdə çap etdirdiyi

elmi məqalələrdə, müxtəlif elmi-təcrübi konfrans və simpoziumlardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Beynəlxalq münasibətlər və insan hüquqları" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Tədqiqat işinin quruluşu giriş, doqquz yarımfəsli əhatə edən 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələrdən ibarətdir. Giriş 12 səhifə (30 309 işarə), I fəsil 4 yarımfəsildən ibarət olmaqla 40 səhifə (74 091 işarə), II fəsil 2 yarımfəsildən ibarət olmaqla 37 səhifə (53 870 işarə), III fəsil 3 yarımfəsildən ibarət olmaqla 52 səhifə (67 676 işarə), nəticə 6 səhifə (12 134 işarə) təşkil edir. Dissertasiya işi ümumilikdə 238 080 işarədən (istifadə edilmiş ədəbiyyat siyahısı, əlavələr istisna olmaqla) ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** hissəsində mövzunun aktuallığı və siyasi elmdə işlənmə dərəcəsi təhlil edilir, obyekti və predmeti, məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və dissertasiyanın strukturu haqqında məlumat verilir.

Dissertasiyanın "**Cənubi Qafqaz regionunun hidrotəhlükəsizlik məsələləri"** adlanan birinci fəsli dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsli "**Ekoloji təhlükəsizliyin nəzəri-konseptual əsasları"** adlanır. Burada tədqiqat mövzusunun nəzəri-metodoloji konsepsiyası araşdırılmış, ekoloji sahədə həm yerli, həm də xarici nəzəri-konsepsiyalar müqayisəli təhlil əsasında öyrənilmişdir. Mövzunun nəzəri-konseptual cəhətdən araşdırılması onu deməyə əsas verir ki, ekoloji təhlükəsizliyin subyekti dar mənada insan, vətəndaş və cəmiyyət, geniş mənada, xüsusilə həlledici rola malik olan dövlət hesab olunur. Bir sözlə təhlükəsizlik qavramı maraq və təhdid anlayışları ilə sıx bağlıdır. Müasir dövrdə dövlətlərin təhlükəsizlik mühitinə qarşı olan təhdid və hədələrdən biri ekoloji təhlükəsizlikdir. Ekoloji təhlükəsizlik milli təhlükəsizlik sisteminin

tərkib hissəsi kimi milli təhlükəsizlik sisteminin digər yarımsistemləri ilə qarşılıqlı əlaqədə olub özündə onların təsirini ehtiva edir.

Tədqiqat işində realizm və neorealizm nəzəriyyələri araşdırılaraq regionun hidrotəhlükəsizliyində kollektiv təhlükəsizlik konsepsiyasının tətbiqinin daha uğurlu olacağı qənaətinə gəlinir. Belə ki, Cənubi Qafqazda Kür-Araz çay hövzəsinin normadan artıq çirklənməsi məhz kollektiv, regional qanunvericiliyin ya olmaması, ya da natamamlığı səbəbindən problemin həllini gecikdirir. [25] [26]

**“Cənubi Qafqazda su ehtiyatlarının ekoloji vəziyyəti və region əhalisinə təsir imkanları”** adlanan ikinci yarımfəsildə transsərhəd Kür-Araz çay hövzəsinin mövcud ekologiyası və sahil dövlətlərin sudan istifadə rejiminin beynəlxalq normalara uyğunsuzluğu faktları, regionun su rezervuarlarına yönəlmiş ifrat antropogen təsirin region əhalisinə vurduğu fəsadlar və Ermənistanın qeyri-leqal hidrosiyasi fəaliyyəti tədqiq olunmuşdur. Tədqiqatda qeyd olunur ki, Azərbaycan Respublikası ərazisinə axan çaylar yuxarı sahilyanı regionlarda qalıq sularla çirkləndirilərək Xəzər dənizinə doğru istiqamətlənib. Transsərhəd çay sularında kəmiyyət və keyfiyyət faktoru region əhalisinin sosial-iqtisadi həyatında vacib göstərici hesab edilir. Eyni zamanda Kür-Araz hövzəsində toksik maddələrin normadan artıq olması və Araz çayının bir sıra qollarının aşağı keyfiyyətli çay qrupuna (5-ci kateqoriya) daxil olması faktı müəyyən olunmuşdur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatları təhlil edilmiş və ölkədə iyirmi il əvvəlki hidrovəziyyət müqayisə edilərək su ehtiyatlarının istifadəsində azalma faktı təsdiq olunmuşdur. [27], [28]

---

[25] Abbasbəyli, A., Nəcəfov, E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. - Bakı: - 2007. - 211 s.

[26] Məhərrəmov, A.A. Ekoloji təhlükəsizlik prinsipi və ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi məsələləri: [Elektron resurs] / URL http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%202008-1/88-96.pdf. - s.88-92.

[27] Qənbərov, D. M., Hüseynov, Ə. İ., Qasımov, A. M. elmi red. Ekologiya hüququ - xüsusi hissə: Dərslik. / Bakı Dövlət Universiteti.- Bakı: Sabah, 2017. - 260 s. s.55-68.

[28] Qənbərov, D.M. Beynəlxalq ekoloji standartlar insan hüquqları kontekstində. - Bakı: Sabah, - 2015.- 324 s. s.104.

Azərbaycan-Gürcüstan, Azərbaycan-Türkiyə münasibətlərində müşahidə olunan konstruktiv hidrosiyasətin əksinə olaraq, Ermənistan-Gürcüstan (Debed-Xram çayı timsalında), Ermənistan-İran (Mehri, Qaraçılar su elektrik stansiyaları) münasibətlərində ekologiya sahəsində imzalanan sazişlərin təcrübədə reallaşmaması kimi faktlardan bəhs olunur. [29]

**”Xəzər dənizinin ekoloji sferası”** adlı üçüncü yarımfəsildə Xəzər dənizinin ekologiyasının dənizə axan çayların ekoloji vəziyyətindən asılılığı amilləri araşdırılmışdır. Həmçinin tədqiqat prosesində dənizin statusu ilə bağlı yaranmış siyasi qarşıdurma, Xəzər dənizinin ekoloji problemlərinin bölgə xalqlarının rifahına təsiri məsələləri, dənizin ekoloji tarazlığını pozan ən güclü amillərdən birinin onun karbohidrogen potensialı, qanunsuz balıq ovu və brakonyerliklə bağlılığı faktı müəyyən olunmuşdur. Xəzər dənizinə atılan küllü miqdarda sənaye tullantıları dənizin ekologiyasına uzun illər ərzində güclü şəkildə zərər vurmağa başladı. Məsələn, nüvə ölkəsi olan Rusiyada 31 nüvə reaktorunun fəaliyyəti həm ölkə ekologiyasına, həm də bu ərazidən Xəzərə tökülən çayların ekologiyasına böyük fəsadlar törətməkdədir.

Eləcə də siyasi cəhətdən bölgədəki əksər regionlarda demokratik ənənələrin zəif inkişaf etdiyi və siyasi, iqtisadi strukturlarında bir sıra çətinliklərin mövcudluğu araşdırılmışdır. Belə ki, Sovet İttifaqı dağıldıqdan sonra baş verən altı ərazi münaqişəsindən beşi Xəzər regionuna daxildir. Bu cəmiyyətlərin əksəriyyətində dərin yığılan ictimai və iqtisadi problemlər hələ də davam etməkdədir.

Azərbaycan dövlətinin dənizin hüquqi statusu ilə bağlı həyata keçirdiyi uğurlu siyasəti xüsusilə qeyd etmək lazımdır. Prezident

---

[29] Michael, E.Campana., Vener, B.B and Baek S.L. Hydrostrategy, Hydropolitics and Security in the Kura-Aras Basin of the South Caucasus, Universities Council on Water Resources. Journal of contemporary Water Research and Education: [Electronic resource] / Mexico University, Berlin, december, - 2012. №149, URL: https://onlinelibrary.wiley.com/doi/epdf/10.1111/j.1936-704x.2012.03124.x - p.22-32.

İlham Əliyevin vurğuladığı kimi Xəzərin böyük karbohidrogen xammal ehtiyatları həcminə görə Fars körfəzi ölkələri ilə müqayisə ediləcək səviyyədədir, bu vacib amillərdən biridir ki, Xəzər dənizinin hüquqi statusunun təxirəsalınmadan həlli məsələsi sahilyanı dövlətlər üçün prioritet olmalıdır. Tədqiqat işində İran və Türkmənistanın qey-ri-rasional mövqeyinə rəğmən 2018-ci ildə "Aktau" Konvensiyasının imzalanması ilə dənizin hüquqi bazasında mühüm dəyişikliklərin icraatı və region dövlətlərinin perspektivli yanaşması öyrənilmişdi.

**"Qafqazda regional dövlətlərin hidrosiyasi əlaqələri"** adlı dördüncü yarımfəsildə Cənubi Qafqazın bütöv bir sosial-iqtisadi məkan kimi regional dövlətlərin xüsusi maraq dairəsində olması və bu dövlətlərin hər birinin Qafqazın bütövlüyünü və təhlükəsizliyini özünəməxsus bir tərzdə qəbul etməsi geniş şəkildə tədqiq edilmişdir. Bununla əlaqədar Türkiyə Cümhuriyyətinin hidrostrategiyasında transsərhəd Araz və Kür çaylarının inhisara alınması cəhdləri qeyd olunur. [30] Türkiyə və İran arasında Araz çayı ilə bağlı qarşıdurmanın yaranması, nəticədə Araz çayının İrana aid hissəsində suyun həcminin təqribən 50% azalması məsələsinə toxunulur. [31] Digər bir tərəfdən, Türkiyə-Gürcüstan münasibətlərində Beşikkaya SES ilə əlaqədar yaranan mübahisəyə və Türkiyənin diplomatik müstəvidə məsələni həll etməsinə diqqət çəkilir. [32] Daha sonra Azərbaycan-Rusiya sərhədində Samur çayı problemi və Dağıstan separatçı qurumlarının çayın bölüşdürülməsinə dair əsassız iddiaları

---

[30] Yildiz, D. A new International Hydrodiplomacy: from water cooperation to comprehensive collaboration // Global and regional hydropolitical problems in the context of international cooperation and security, international conference. Baku: 2014, - p.115-130.

[31] Motevalli, G. İran beset by water woes from wetlands to Afghan border: [Elektronic resource] / 10 may 2015. URL:http://www.bloom-berg.com/news/articles/2015-03-10/iran-beset-by-water-woes-from-wetlands-to-afghan-border

[32] Veliyev, J., Gvasalia, T. The Environment, human rights and conflicts in the South Caucasus and Turkiye - transboundary water cooperation as a mean to conflict transformation: [Electronic resource] / Caucasus edition, january 10, 2019. URL:https://caucasusedition.net/the-environment-human-rights-and-conflicts-in-the-south-caucasus-and-turkey-transboundary-water-cooperation-as-a-mean-to-conflict-transformation/.

yarımfəsildə öyrənilib. [33] Həmçinin tədqiqat işində göstərilir ki, Ermənistan və İran Azərbaycan Respublikasına münasibətdə hidrostrategiyada əsasən ortaq maraqlar və birgə taktiki imkanlarla çıxış edirlər. Transsərhəd su hövzələrinin birgə istismarı sahəsində onların nümayiş etdirdiyi vahid fəaliyyət Cənubi Qafqazda hidrosabitliyə xidmət etmir. Məsələn, bu sahədə bugünədək həllini tapmayan Urmiya böhranını göstərmək olar. Bir sözlə İranın hidrosiyasətində region dövlətlərinə təsir vasitəsi kimi Ermənistandan yararlanmasına tədqiqatda münasibət bildirilir.

Dissertasiya işinin **"Cənubi Qafqazın transsərhəd su ehtiyatlarının beynəlxalq siyasi-hüquqi aspektləri"** adlanan ikinci fəslin birinci yarımfəsli **"Cənubi Qafqaz dövlətlərinin hidrosiyasətinin beynəlxalq qanunvericiliyə uyğunluq səviyyəsi və insan hüquqlarının təminatı məsələləri"** adlanır. Bu yarımfəsildə transsərhəd suların birgə idarə edilməsi prinsiplərinin beynəlxalq qanunvericilik normalarına uyğunluq göstəriciləri araşdırılmışdır. Tədqiqatda transsərhəd Kür-Araz çayları ilə bağlı regional sazişin imzalanmasında böyük çətinliklər yaradan İran, xüsusilə Ermənistanın mövqeyinə diqqət çəkilir. Qeyd olunur ki, ətraf mühitin mühafizəsində əsas məqsəd insanın, cəmiyyətin və dövlətin bioloji və sosial varlıq kimi qorunmasıdır. [34] [35] BMT-nin Avropa İqtisadi Komissiyasının "Transsərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair" Helsinki Konvensiyasına məqsədli şəkildə qoşulmayan, humanitar hüququn 1949-cu il "Cenevrə Konvensiya"nın və 1907-ci il "Haaqa Konvensiya"nın müddəalarını pozan Ermənistanın beynəlxalq hüquq normalarına, əxlaq meyarlarına zidd olan hidrodiversiya və

---

[33] Qurbanov, A. Hidroböhran, hidromünaqişələr və hidrostrategiya: [Elektron resurs] / Bakı: - 2013. URL:http://elibrary.bsu.edu.az/files/books_460/N_210.pdf. - 162 s. - s.153-155.

[34] Əliyev, Ə. İnsan Hüquqları: Dərslik / Bakı: - 2013.

[35] Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı "İnsan İnkişafı" tədris vəsaiti. [Elektron resurs] / Bakı: 2014. URL: http://www.az.undp.org/content/dam/azerbaijan/docs/publications/sustainabledevelopment/HDtextbook/1.pdf

hidroterror aktları geniş şəkildə özünü büruzə verir.[36] Bu mənada beynəlxalq hüquq normaları əsasında Ermənistanın məsuliyyətə cəlb olunması, bu dövlətə sanksiya mexanizmi əsasında öhdəliklər tətbiq edilməsi vacib və qaçılmaz məsələdir.

Dissertasiya işinin ikinci yarımfəsli **"Cənubi Qafqaz ölkələrinin su ehtiyatlarının inteqrasiyalı idarə edilməsinin siyasi, hüquqi əsasları"** adlanır. Yarımfəsildə sudan səmərəli istifadənin təmin olunması, onların çirklənmə və miqdarca tükənmədən mühafizəsi, suların ziyanlı təsirlərinin qarşısının alınması və aradan qaldırılması, su obyektlərinin vəziyyətinin yaxşılaşdırılması və su istifadəçilərinin hüquqlarının qorunması üçün regional dövlətlərin inteqrasiya imkanları araşdırılmışdır. Bu mənada müasir dövrün əsas problemlərindən biri dövlətlərin çoxtərəfli əməkdaşlığının zəruriliyini dərk edib ona qayıtması vacib məsələlərdən biri olması qənaətinə gəlinib. [37]

Avropa İttifaqının Su Çərçivə Direktivinin iştirakçısı olan Gürcüstan və Ermənistanda isə hidrosferada praktik inteqrasiya prosesləri Azərbaycandan fərqli təzahür amilləri öyrənilmişdir. Məsələn, Aİ SÇD-nin maddə 7 və 8-də nəzərdə tutulan su resurlarının müntəzəm monitorinqi və içməli su istifadəsinin nizamlama rejimi ilə bağlı müddəalar hər iki ölkədə direktivin tələb və öhdəliklərinə uyğun deyil, hökumətlərin daxili qanunvericilik prinsipləri əsasında tətbiq olunur. Eləcə də direktivin 6 prinsipindən biri olan suyun qiymətləndirilməsi siyasətində "çirkləndirən ödəyir" prinsipi Ermənistan tərəfindən açıq-aşkar pozulmuşdur.

Cənubi Qafqaz dövlətlərindən yalnız Azərbaycan beynəlxalq təşkilatlarda, eyni zamanda Dünya Su Şurasında bütün beynəlxalq qaydalara uyğun olaraq təmsil olunur. Ermənistan və Gürcüstan isə Dünya Su Şurasında bugünədək heç bir təmsilçilik funksiyası daşımır. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, əsası Fransanın

---

[36] Humbatov, M. Threat to the world: hydrological crime and ecological genocide. - Vilnius, - 2018, - p.41-43

[37]Environmental Performance Reviews Azerbaijan United Nations. [Elektronic resource] New York and Genevra, - 2011. URL:http://www.unece.org/fileadmin/DAM/env/epr/epr_studies/Synopsis/Azerbaijan%20ECE.CEP.158.synopsis%20english.pdf.

Marsel şəhərində qoyulan təşkilatda Fransa aparıcı dövlət olaraq Ermənistanın hidrosiyasətinə əhəmiyyətli təsir etmək iqtidarında deyil. Bu amil Ermənistanın hidrosiyasətində mövcud boşluqların olmasından xəbər verir. [38]

Dissertasiyanın "**Azərbaycan Respublikasının hidro təhlükəsizlik problemləri"** adlanan üçüncü fəslin birinci yarımfəsli **"Azərbaycan Respublikasının hidrosiyasəti: məqsədlər və prinsiplər"** adlanır. Yarımfəsildə Azərbaycanın hidroloji mühitinə qısa ekskurs edilir, dövlətin hidrosiyasətdə rəhbər tutduğu əsas prinsip və normalarına diqqət çəkilir. Qeyd olunur ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə gələcəyə hesablanmış məqsədyönlü ekoloji siyasət həyata keçirilmişdir.[39] Reallıqda Azərbaycan Respublikasının şirin su mənbələrinin həcmi və onların istismarı baxımından müəyyən çətinliklərlə üzləşməsinə baxmayaraq, Ulu Öndərin təşəbbüsü ilə çox böyük əhəmiyyətə malik su anbarları, su elektrik stansiyaları və bir çox meliorasiya obyektləri tikilib əhalinin istifadəsinə verilmişdir. [40] Eləcə də Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə hidrostrategiya sahəsində hidroehtiyatların vahid idarəetmə sistemi yaradılmış, hidrosiyasətdə yeni nailiyyətlər əldə olunmuşdur.[41] Xüsusilə Azərbaycan 2017 və 2019-cu illərdə BMT-nin dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən hədəflərini prioritetləşdirərək MDB məkanında ilk olaraq iki Könüllü Milli Hesabat təqdim edən ölkə olub. Azərbaycan dövlətinin qoşulduğu bir çox beynəlxalq konvensiyaların daxili qanunvericilikdə real təzahürü nümunəsində dünyada ən böyük qurğulardan biri hesab olunan Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksini

---

[38] World Water Council [Electronic resource] / URL: https://www.worldwatercouncil.org/en.

[39] Hüseynova, İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi. - Bakı: - 2008. - s.92-95.

[40] Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu konvensiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Azərbaycan qəzeti, 31 mart, - 2006, № 68, - s.3.

[41] Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyası. [Elektron resurs] / URL:https://www.president.az/files/future_az.pdf.

göstərməliyik (məhsuldarlığı 6,6 $m^3/s$).[42] Məhz Prezident İlham Əliyevin uğurlu hidrosiyasətinin nəticəsidir ki, Azərbaycan bütün Qafqaz regionunda coğrafi cəhətdən ən az su ehtiyatına sahib olmasına rəğmən lider dövlət statusunu qoruyub saxlayır.

İkinci yarımfəsil **"Azərbaycan Respublikasının hidroehtiyatlarına işğal dövründə yönələn təhdidlər və təxribatlar"** adlanır. Azərbaycan Respublikasının işğaldan azad olunan Qarabağ bölgəsi və ətraf yeddi rayonun su ehtiyatlarına yönəlmiş hidroterror, hidrodiversiya aktları nəticəsində şirin su mənbələrindən və hidrotexniki qurğulardan barbarcasına istismar məsələləri, Metsamor AES-in 19 illik texniki baxımsızlığı nəticəsində ətraf mühitin təhlükəsizliyinə yönələn təxribatlar araşdırılmışdır. [43], [44] SSRİ-nin hüquqi varisi kimi özünə haqq qazandıran və hidrosiyasətdə transsərhəd su bölgüsünə dair 1924-cü il SSRİ-Türkiyə, 1957-ci il SSRİ-İran sazişlərinin müddəalarına əsaslanan Ermənistan ATƏT-in Minsk Qrupunun səmərəsiz və əsassız təkliflərindən faydalanaraq münaqişənin dinc yolla həlli imkanlarına qeyri-konstruktiv münasibət göstərib. Xaricdəki erməni havadarlarından dəstək alan Ermənistan hakimiyyəti transsərhəd su ehtiyatlarının mühafizəsi ilə bağlı regional müqaviləni imzalama prosedurundan məqsədli şəkildə yayınıbdır.

Dissertasiya işində Sərsəng su rezervuarında Ermənistanın məqsədli şəkildə yaratdığı ekoloji böhran geniş şəkildə təhlil olunmuşdur.[45] 2016-cı ildə AŞPA-nın bu sahədə qəbul etdiyi 2085 saylı qətnaməsi şərh edilmiş və ekoloji böhranın region əhalisinə vurduğu zərərlər qeyd olunmuşdur. Eləcə də Araz çayının Oxçuçay,

---

[42] Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fəaliyyətimiz. [Elektron resurs] / URL:https://azerbaijan.un.org/az/sdgs.

[43] Bakhshiyeva, Y. Threats and provocations originating from the Republic of Armenia towards the water resources of the Republic of Azerbaijan // Review of Armenian studies, - 2019. № 40, - p.113-133.

[44] Велизаде, Р. Мецаморская АЭС-экологическая бомба для региона. - Баку: Элм, - 2017. - с.155.

[45] Rzayev, R. The occupied Sarsang water reservoir as a means of hydrodiversion and hydro-terror by Armenia against Azerbaijan // Global and regional hydropolitical problems in the context of international cooperation and security, international conference. - Baku: - 2014. - p.33-36.

İnciçay, Həkəri kimi qollarının Ermənistanın mis, molibden müəssisələrinin çirkab tullantıları ilə çirkləndirilməsi, hətta xarici şirkətlərin nümayəndələri ilə birgə (Məsələn, Beyz Metal, Kronimet və s.) Qarabağın faydalı qazıntılarının qanunsuz istismarını reallaşdırması faktı araşdırılmışdır.

**“Azərbaycan Respublikasının işğaldan azad olunan su hövzələri”** adlanan üçüncü yarımfəsildə 44 günlük Vətən müharibəsi nəticəsində azad olunan Azərbaycan Respublikasının su hövzələrinin işğal dövründəki və hazırki hidromühiti müqayisəli təhlillər əsasında araşdırılmış və hidro-təhlükəsizlik sahəsində dayanıqlı inkişafa yeni bir zəmin yaradılması məqamları tədqiq olunmuşdur. Qarabağ bölgəsi və ətraf rayonlarda Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun hidrotəhlükəsizliyində yeni dövrün başlanması və dövlətin uğurlu hidrosiyasəti istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlər, layihələr öz əksini tapmışdır. Təkcə Azərbaycanın deyil, eyni zamanda Cənubi Qafqaz regionunun hidromühitində mühüm rol oynayan Qarabağ regionu və ətraf yeddi rayonun işğaldan azad olunması regionun su təsərrüfatında əsaslı inkişafın başlanmasına geniş imkanlar açıb. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”-in təsdiq edilməsi haqqında sərəncamı əsasında Laçında “Güləbird”, Tərtərdə Sərsəng, Suqovuşan su elektrik stansiyalarının fəaliyyətə başlaması, Cəbrayılda “Xudafərin”, “Qız qalası” hidroqovşaqlarında yenidənqurma işlərinin başlaması dövlət başçısının praqmatik siyasətinin təzahürüdür.

Dissertasiyanın **“Nəticə”** hissəsində müəllifin qənaətə gəldiyi elmi nəticələr ümumiləşdirilmiş və mövzu ilə əlaqədar olaraq aparılan tədqiqatlar nəticəsində mühüm nəzəri, təcrübi əhəmiyyətə malik olan və aktuallıq kəsb edən bir sıra nəticələr irəli sürülmüşdür. Onlara aşağıdakılar aiddir:

- Cənubi Qafqaz regionunda su ehtiyatlarının azalma tendensiyası qeyri-bərabər paylanma nəticəsində meydana gəlmişdir;
- əsasən yuxarı axar ölkələrində suların sənaye tullantıları ilə çirkləndirilməsi və ekologiyaya yönələn bu cür təxribatlar davamlı - xarakter almışdır;

- Cənubi Qafqazda su ehtiyatları ilə əlaqəli region dövlətləri vahid mövqe nümayiş etdirməmiş, su ehtiyatlarından düzgün istifadə və idarəetmə mexanizmi formalaşdırılmamış, məsələ ilə bağlı hüquqi baza mövcud deyildir;

- Ermənistan Azərbaycan ərazisinin 20%-ni işğal etdiyi 30 il müddətində transsərhəd su axarları və bu ərazilərdə mövcud çay və hidrotexniki qurğuları Azərbaycana qarşı təxribat obyektinə çevirmişdi;

- Ermənistan və İran qərəzli surətdə su ehtiyatlarını siyasi-iqtisadi təsir vasitəsinə çevirmiş, qeyri-qanuni və region dövlətləri ilə razılaşdırılmadan transsərhəd su axarları üzərində hidroqurğular inşa etmiş, kənd təsərrüfatı sahələrini genişləndirmişdir, bir sözlə region ölkələrinin sudan istifadə imkanlarını məhdudlaşdırmışdı;

- region dövlətləri arasında birgə ekoloji informasiya sisteminin hələ də yaradılmaması, ümumiyyətlə regional inteqrasiya siyasətinin natamamlığı hidromünasibətlərin tənzimlənməsində nöqsanları qaçılmaz edir.

Mövzunun tədqiq və təhlil olunduğu məqamlara əsaslanaraq Cənubi Qafqazın hidrotəhlükəsizliyində hazırki problemləri yaradan amilləri aşağıdakı kimi təsnif etmək olar:

- region dövlətlərinin milli qanunvericiliyində transsərhəd suların istifadəsinə və mühafizəsinə dair beynəlxalq hüquq normaları imperativ xarakter daşımır. Cənubi Qafqazda region dövlətləri fərdi hidrosiyasət yürüdür və vahid regional müqavilə mövcud deyildir. Ermənistan və Gürcüstan müvafiq beynəlxalq konvensiyalara məqsədli şəkildə qoşulmamışdır. Həmçinin Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Ermənistanın həm transsərhəd sulardan istifadəyə dair kvotaları müəyyən edilməmiş, həm də su ehtiyatlarının birgə idarə olunmasına dair regional strukturlar yaradılmamışdır;

- region dövlətləri razılaşdırılmamış qaydada transsərhəd su axarları üzərində hidrotexniki qurğular tikmiş və əlavə qolların çəkilişi planlarını həyata keçirmişdilər;

- su təsərrüfatında tələbat təklifi üstələyir, israfçılığa, şirin su mənbələrinin çirkləndirilməsinə qarşı təsirli sanksiyalar tətbiq edilməmişdir;

- istehsal müəssisələrində, yaşayış məntəqələrində zəruri miqdarda sutəmizləyici qurğular və sudan təkrar istifadə sistemləri mövcud deyildir, daxili su axarları və göllər sənaye, kənd təsərrüfatı və məişət tullantıları ilə çirkləndirilir, hidrotexniki obyektlərdə su standartlara tam cavab vermir və əhalinin bir hissəsi təhlükəsiz və təmiz içməli sudan istifadə edə bilmir;

- kənd təsərrüfatında sudan qənaətlə və tam səmərəli istifadəyə imkan verən innovativ suvarma metodları geniş tətbiq edilmir, mövcud hidroqurğular aşınmış vəziyyətdədir;

- Azərbaycanın əsas şirin su mənbələri olan Araz və Kür çaylarının Ermənistan və Gürcüstan tərəfindən sənaye, kənd təsərrüfatı və məişət tullantıları ilə çirkləndirilməsi davamlı xarakter almışdır. Ermənistan və Gürcüstanın iri dağ-mədən və kimya sənayesi müəssisələri Azərbaycan Respublikası ərazisinə yaxın transsərhəd su axarlarında, eləcə də Gürcüstanda etnik azərbaycanlıların sıx yaşadıqları bölgələrdə yerləşdirilmişdir;

- 2015-ci ildən sonra transsərhəd Samur çayının su ehtiyatları Rusiya Federasiyasının bəzi siyasi dairələri və Dağıstandakı separatçı təşkilatlar tərəfindən Azərbaycana qarşı təzyiq vasitəsi olmuşdur;

- Azərbaycanın yerüstü və yeraltı su ehtiyatlarının bir hissəsi 30 il müddətində Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə qalmış və onlardan Azərbaycana qarşı ekoloji və hidroloji təzyiq vasitəsi kimi istifadə edilmişdir.

Cənubi Qafqazda su ehtiyatlarının təhlülkəsizliyinin səmərəli və davamlı təminatı üçün elmi-praktiki əhəmiyyətə malik təklif və tövsiyələr irəli sürülmüşdür:

- ümumi nəzarət əsasında su ehtiyatlarından səmərəli istifadənin həvəsləndirilməsi - qlobal iqlim dəyişkənliyi nəzərə alınmaqla Cənubi Qafqaz dövlətlərində su ehtiyatlarından dayanıqlı istifadənin təşkili olduqca vacib amildir. Belə ki, region xalqlarının sağlamlığı üçün zərərsiz olan şirin su ilə fasiləsiz təminatının yaxşılaşdırılması ilə bərabər zəruri sanitariya şəraitinin yaradılması gərəkdir;

- içməli suyun keyfiyyətinin yaxşılaşdırılması və müvafiq standartlara uyğunlaşdırılması təxirə salınmamalıdır;

- su ekosistemlərinin fəaliyyətini tənzimləyən müvafiq qanunların təkmilləşdirilməsi - Cənubi Qafqaz dövlətlərinin hər birində sənaye və kənd təsərrüfatının, əhalinin şirin su ehtiyatı ilə - fasiləsiz və şüurlu şəkildə təminatı məqsədilə milli fəaliyyət - proqramları – Su Strategiyaları hazırlanmalı, həmin sənədlər - beynəlxalq hüquq normaları və transsərhəd dövlətlərin müvafiq proqramları ilə uzlaşdırılmalıdır. Bu materiallarda su amilinin dövlətlərarası münasibətlərin qarşılıqlı faydalı prinsipləri əsasında tənzimlənməsində, ətraf mühitin qorunmasında, xalqların və dövlətlərin inteqrasiyasında, insan hüquqlarının təminatında və s. - müstəsna rola malik olması nəzərə alınmalıdır;

- transsərhəd çayların çirklənmədən mühafizəsi və onların hövzəsində yerləşən dövlətlər tərəfindən su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi vacibdir;

- su çatışmazlığının aradan qaldırılması məqsədilə sənaye və digər obyektlərdə suyun təkrar istifadəsinin genişləndirilməsi üçün qeyri-ənənəvi sulardan (tullantı, kollektor-drenaj, çirkab və s.) məqsədyönlü istifadə edilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir;

- su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi sxeminin hazırlanması üçün yerüstü və yeraltı suların ehtiyatları haqqında mövcud məlumatların təhlili və sistemləşdirilməsi zəruridir.

Cəmiyyətin ətraf mühitlə qarşılıqlı əlaqəsinin xarakteri dəyişdiyi dövrdə bu problemin həlli bütün dövlətlərin həmrəy və həmfikir olmasını şərtləndirir. Əks təqdirdə təbii mühitin dağıdılması prosesi qlobal anlamda daha böyük fəsadlara səbəb ola bilər. Belə vəziyyətdə yeganə həll yolu ekologiyaya dağıdıcı təsir yox, onunla faydalı və səmərəli əlaqə qurmaq prioritet olaraq son dərəcə vacibdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Baxşıyeva, Y.Ü. Ermənistan-Azərbaycan münaqişəsi və ekoloji təhlükəsizlik problemləri // Qafqazşünasların I Beynəlxalq Forumu. - Bakı, - 2017, - s.327-331.

2. Bakhshiyeva, Y.U. South Caucasus: hydro-security problems in human rights context // - Гилея, Киев, - 2017, №8, - с.337-339.

3. Baxşıyeva, Y.Ü. Ermənistanın Azərbaycana qarşı hidroterror fəaliyyəti // Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər, respublika elmi konfransı. - Bakı, - 2017, - s.19-20.

4. Bakhshiyeva, Y.U., Huseynova, I.M. Geopolitical security problems of the Caspian Sea // Этно-территориальные конфликты в глобальной геополитике, международной научно-практической конференции. - Кишинеу, - 2017, - с.82-89.

5. Bakhshiyeva, Y.U. The problems of integrated management of water resources in South Caucasus // İntercultural Communications, - Tbilisi, - 2017, №28, - p.109-115.

6. Baxşıyeva, Y.Ü. Cənubi Qafqazın transsərhəd su ehtiyatları beynəlxalq hüquq müstəvisində // Gənc Tədqiqatçı, - 2018, - c.4, №2, - s.157-163.

7. Baxşıyeva, Y.Ü. Ermənistanın Azərbaycan Respublikasına qarşı hidroterror fəaliyyəti // Dirçəliş XXI əsr, 186, - Bakı, - 2018, - s.76-86.

8. Baxşıyeva, Y.Ü. Xəzər dənizinin ekoloji təhlükəsizlik problemi // Tarix və onun problemləri. - Bakı, - 2018, - s.219-224.

9. Baxşıyeva, Y.Ü. Cənubi Qafqaz ölkələrində su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi problemləri // Geostrategiya jurnalı, - 2019, №01(49), - s.60-65.

10. Baxşıyeva, Y.Ü. Ermənistanın ekoloji terror siyasəti // Qafqazda terror respublika elmi konfransı. - Bakı, 28 noyabr, - 2019, - s.153-154.

11. Kəlbizadə, E., Baxşıyeva, Y., Əzimov, Ə. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində. - Bakı, MTM İnnovation, - 2019, - 360 s. - s.215-229.

12. Bakhshiyeva, Y.U. Threats towards the hydrosecurity of the Republic of Azerbaijan // ERPA International Journal, Hindistan. - 2019, - c.5, №10, - s. 94-98.
13. Bakhshiyeva, Y.U. Threats and provocations originating from the Republic of Armenia towards the water resources of the Republic of Azerbaijan // Review of Armenian Studies, - 2019, №40, - p.113-133.
14. Bakhshiyeva, Y.U. Legal problems of the Caspian Sea in the context of regional and international cooperation // Sosial elmlər. - Bakı, - 2019, №2, -s.114-125.
15. Бахшиева, Е.У. Гидрополитика Азербайджанской Республики на Южном Кавказе // Кизляр на перекрестке эпох и культур: социокультурный, исторический и экономический облик города Материалы международной научно-практической конференции. - Махачкала, - 2020, - с.94-99.
16. Bakhshiyeva, Y.U. The transboundary water resources of South Caucasus in the context of international law // IX International Istanbul scientific research congress. - Turkiyə, may 24-25, - 2022, - p. 278.
17. Bakhshiyeva, Y.U. Armenia᾽s threats and provocations toward the hydroresources of Azerbaijan Republic // V International New-York academic research congress. - Turkiye, - april 23-24, - 2022, - p.1104-1106.

Dissertasiya işinin müdafiəsi “ 14 ” dekabr 2023-cü il tarixində saat 13.30-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında (dia.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “13” noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.11.2023
Kağızın formatı: A5
Həcmi: 39588 işarə
Tiraj: 70